

ABŞ rəhbərliyi Meksika körfəsinə neft axıtdığına görə Böyük Britaniyanın “British Petrolium” (BP) şirkətinə cərimə kəsməyi planlaşdırır.

AzNews.az xəbər verir ki, bu haqda məlumatı “Bloomberg” saytı yayıb.

Məlumatda deyilir ki, cərimənin 16-18 milyard dollar olacağı deyilir.

BP-nin işi ilə bağlı Yeni Orleana Federal məhkəməsi icraata başlayıb.

Məhkəmə BP-nin tərəfdaşı olan Anadarko şirkətini də 1 milyard dollar həcmində cərimələcəyi açıqlanıb.Qeyd edək ki, məlum hadisə 2010-cu ildə BP-nin “Deepwater Horizon” platformasında baş verib. Qəza zamanı 11 nəfər ölüb. 3 ay ərzində körfəzə 4.9 milyon barel neft axıb.